# Şəhadətə yüksələn fatehlərdən biri - Nəzər Əzizov



**Nəzər Ağacəlil oğlu Əzizov ailənin tək övladı idi. Evdə, həyətbacada hər işi demək olar ki, o görürdü. Ata-ana qulluğunda dayanmağı xoşlayardı. Hobbisi at minib çapmaq idi. Həmyaşıdları maşından danışanda, o, atdan danışmağı sevərmiş.**

Cəmafət ana şəhid övladının söz-söhbətlərini, hərəkətlərini, davranışlarını göz önünə gətirib, onunla bağlı kövrək xatirələrindən hamıya danışır, elə bil ki, bununla təskinlik tapırdı. Bu dəfə də əlinin arxası ilə nəmərmiş gözlərinin yaşını silərək titrək səslə dedi: "Özümə söz vermişdim ki, Nəzər haqqında danışanda ağlamayım. Amma bacarmıram..."

Ana köks ötürərək əlavə etdi: "Həmişə mənə deyərdi ki, ana, müharibədir, hər an nə desən ola bilər. Əgər birdən başıma bir iş gəlsə, ağlama, başını dik tut. Elə bil bizi qabaqcadan bu günə hazırlayırmış. Hər dəfə səbirli, təmkinli, dözümlü olmağımızı tapşırırdı, bizə ürək-dirək verirdi. Hər sözü sanki bir vəsiyyət idi. Nəzər televizorda Xüsusi Təyinatlı Qüvvələrin maskalı əsgərlərini görüb, böyüyəndə onlar kimi əsgər olacağını deyirdi..."

Onun ermənilərə nifrəti vardı. Çünki vandallıqları barədə çox eşitmişdi. Əsgərliyə getdi, döyüşlərdə iştirak etdi. Bir dəfə ön cəbhədə Nəzərin yanında olanda o, bir hadisəni xatırladı.

Cəmafət xanım dedi: "Ana, yadındadırmı, bir vaxt mənə verdiyin çörək tikələri erməni təyyarəsidir, deyə vurub əlindən alırdım. İndi isə oğlun ermənilərin yalançı yox, əsl təyyarələrinin qənimi olub. Bir göz qırpımında məhv edirəm, onları..."

Nəzər uşaq vaxtı nadinc olduğuna görə üç dəfə qolu sınıb, bir dəfə də, belindən ağır zədə alımışdı. Odur ki, onun hərbi xidmətdə qulluqetmə vaxtı çatanda nənəsi ilə anası Nəzərdən gizlin hərbi komissarlığa gəlib onu əsgərlikdən saxlatmaq istəyiblər. Tərslikdən həmin gün Nəzər də hərbi komissarlıqda olub. Nənəsigili orada görüb bərk əsəbiləşib... Əsgər olacağını qətiyyətlə bildirib.

...Nəzər Ağacəlil oğlu Əzizov 1991-ci il avqustun 28-də Kürdəmir rayonunun Dəyirmanlı kəndində anadan olub. Uşaqlıqdan hərbçi olmaq istəyirdi. Həqiqi əsgəri xidmətini başa vurduqdan sonra ordu sıralarında qalaraq müddətdən artıq xidmət edir. Bakıda gizirlik kursunu bitirir. Arzusu hələ uşaq yaşlarından sevdiyi "maskalıların" - Xüsusi Təyinatlı Qüvvələrin sıralarına qəbul olmaq idi. Belə də olur. Bütün xidməti sınaqlardan uğurla, məharətlə çıxan Nəzər Əzizov xüsusi təyinatlıların tərkibində xidmətə başlayır.

Nəzər hərb sahəsinə qəlbən, ürəyinin hökmü ilə bağlanmışdı. Türkiyədə, Pakistanda, Pribaltika ölkələrində keçirilən hərbi təlimlərin fəal iştirakçısı olmuşdu. Qazandığı döyüş təcrübəsi 2016-cı ilin Aprel döyüşlərində, eləcə də 44 günlük Vətən müharibəsində karına gəlir. Nəzər düşmənin canına vəlvələ salan bir qəhrəman kimi tanınır. Döyüş yoldaşları ona "Canavar" deyə xitab edirmişlər.

O, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib, Xocalı uğrunda gedən döyüşlərdə böyük igidliklər göstərib, müvafiq döyüş medalları və fəxri fərmanlarla təltif olunub.

Döyüşlərdə həmişə ön sıralarda gedən, qorxu nə olduğunu bilməyən Nəzər Əzizov bu il sentyabrın 12-dən 13-nə keçən gecə müzəffər ordumuzun keçirdiyi "Qisas əməlliyyatı" zamanı qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib.

Nəzər Vətən naminə həyatını qurban verdi. Amma həmişə fəxr duyulası adı, həmişə anılacaq xatirəsi qaldı. Elinəobasına, ata-anasına, ailəsinə, yadigar qoyub getdiyi övladları Uğura və İnciyə başucalığı, alınaçıqlığı bəxş etdi.

Müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyev 44 günlük Vətən müharibəsində, düşmən üzərindəki tarixi qələbəmizdə Xüsusi Təyinatlı Qüvvələrimizin böyük payı olduğunu və bu qüvvələrlə daim fəxr etdiyini hər dəfə qeyd edir. Həmişə qürur duyduğumuz xüsusi təyinatlılardan biri də Nəzər Ağacəlil oğlu Əzizov idi...

***Tofiq ABDULLAYEV***

Azərbaycan.- 2022.- 27 oktyabr.- S.7.